# O UŞAQ TARDA MÖCÜZƏ ELƏDİ

**Bir dəfə onu 3 il bundan qabaq görmüşdüm. Onda da böyük bəstəkar Məmməd Cavadovun oğlu, yaxın dostum Azər müəllim demişdi ki, vaxtın olanda gələrsən bizim məktəbə, bir uşaq var, onun çaldığı "Segah"a qulaq asarsan. Gör o uşaq "Segah"ı necə çalır?**

Mən də eləmədim tənbəllik günlərin bir günündə Füzuliyə gedəndə Horadizdə qızımgilə baş çəkdim, orda da iki addımlıqda fəaliyyət göstərən uşaq musiqi məktəbinə yollandım. Azər müəllim məni görəndə o dəqiqə dilləndi ki, lap vaxtında gəlmisən. İndi o dediyim uşaq məktəbdədir. Atası Rafiq müəllim də burdadır. Axı Rafiq müəllim özü gözəl tar çalır və məktəbimizdə də tar müəllimi işləyir. Uşağa diqqətlə baxdım, gördüm ki, çəlimsiz bir yeniyetmədir. Əlində də balaca bir tarı vardı. O uşaq balaca tarı sinəsinə basdı və bir "Segah" çaldı ki, yanındakıların hamısı və mənim özüm də heyrətləndik. Görəsən, bu balaca uşaqda bu böyüklükdə ürək hardandı? İnanın, o səsi, o barmaqları quş da eşitsəydi göydə dayanar və bu möcüzəli səsə qulaq asardı. Bir onu bildim ki, iki-üç gün o uşağın - Səid Rafiq oğlu Məmmədzadənin çaldığı "Segah"ın səsi qulaqlarımdan getmədi.



Füzuli rayon Uşaq Musiqi məktəbinin direktoru Azər Cavadov hələ də o uşağın çaldığı möcüzəli "Segah"ın təsiri altında idi. Dedi ki, bu yaxınlarda xalq artisti, böyük tarzən Ramiz Quliyev də Səidin çaldığı "Segah"a qulaq asıb və deyib ki, bu uşağın gələcəyi var.

Həmin söhbətdən nə az, nə çox düz 3 il vaxt keçir. İndi Səid Rafiq oğlu Məmmədzadənin 10 yaşı var, orta məktəbdə və musiqi məktəbində 4-cü sinifdə oxuyur. Bayramqabağı qızımgilə gedəndə bir daha dostum Azərlə əlaqə yaratdım. Daha doğrusu, bayramını təbrik elədim. Soruşdu ki, hardasan? Cavab verdim ki, Horadizdə. Dedi ki, bilirəm, onda qızıngilə gəlmisən, nəvələrinin yanındasan. Məktəbimizə gəlsən təzə bir möcüzənin şahidi olarsan. Yarım saatdan sonra həmin ünvanda oldum. O uşağı bir daha yenidən gördüm. İndi böyümüşdü və tarı da əvvəlki kimi balaca deyildi. Yəni böyük tarıydı.

O uşaq yenidən tarı sinəsinə basdı, möhtəşəm bir "Mahur-Hindi" çaldı. Əvvəlkindən də bir qədər güclü idi və püxtələşmişdi. Barmaqları tarın siminin üzərində gəzdikcə möcüzəli anların bir daha şahidinə çevrilirdik. Sanki bu barmaqlar adi barmaq deyildi, sehrli bir barmaq idi və sehrli barmaqdan da tarın simlərinin üzərinə bir yaz yağışı yağırdı. Bu yaz yağışı musiqiyə çevrilib onu dinləyənlərin ürəyinə səpilirdi. Uşaq əvvəlki kimi sıxılmırdı. Bir qədər özünə güvənir və ən nəhayət, istedadına inanırdı. Yenidən bir "Xalis Segah" səsləndirdi. Və bu "Xalis Segah" da işıq olub onun barmaqlarında bizim qəlbimizə, ürəyimizə doldu...

Sən demə, bir müddət bundan əvvəl Mədəniyyət və Turizm Nazirliyinin uşaq, yeniyetmə və gənclər arasında respublika müsabiqəsində Səid Rafiq oğlu Məmmədzadə hamını, o cümlədən münsiflər heyətini heyətləndirib. Və təsadüfi deyil ki, bu müsabiqədə o, III dərəcəli diploma layiq görülüb. Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin imzaladığı bu diplomda yazılıb: "Məmmədzadə Səid Rafiq oğlu Füzuli rayon Uşaq Musiqi Məktəbinin şagirdi. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş uşaq, yeniyetmə və gənclər arasında respublika musiqi müsabiqəsində yüksək nəticə əldə etdiyinə görə".

**Bax, bu Səidin istedadına verilən yüksək bir dəyərdir. Bu balaca uşaq artıq klassik və müasir bəstəkarların ən çətin əsərlərini belə tarda səsləndirməyi bacarır. Bu isə o deməkdir ki, istedadlı gənclər harda olmasından asılı olmayaraq, bir gün gün işığı kimi üfüqdən boylanır və öz işığı, nuruyla insanları təəccübləndirir. Horadiz şəhərində belə bir istedadlı balaca tarzən var və o da tarını sinəsinə basıb çox möcüzəli musiqilər səsləndirir. O musiqi ki, ona kimsə qulaq assa uzun müddət möcüzəli səslənmənin sehrindən uzaq düşə bilməyəcək. Allah bu cür istedadlı uşaqları qorusun!**

**Faiq QİSMƏTOĞLU**

ədalət.-2017.-30 mart.-S.3.